# Ölkəmizdə

## Xarici ticarət dövriyyəsi 30 milyard dolları ötüb

2019-cu ilin 11 ayında xarici ticarət dövriyyəsi 30 milyard dolları ötüb

Gömrük orqanlarında qeydiyyatı aparılmış, lakin gömrük rəsmiləşdirilməsi tam başa çatdırılmamış ixrac olunan xam neft və təbii qazın statistik qiymətləndirilmiş dəyəri nəzərə alınmaqla ötən ilin yanvar-noyabr aylarında ölkənin xarici ticarət dövriyyəsi 30 milyard 40,5 milyon ABŞ dolları, o cümlədən ixracın dəyəri 17 milyard 655,8 milyon dollar, idxalın dəyəri 12 milyard 384,7 milyon dollar olub.

Dövlət Statistika Komitəsindən AZƏRTAC-a bildirilib ki, nəticədə 5 milyard 271,1 milyon dollarlıq müsbət ticarət saldosu yaranıb. 2018-ci ilin yanvar-noyabr ayları ilə müqayisədə xarici ticarət dövriyyəsi faktiki qiymətlərlə 3,2 faiz artıb, real ifadədə isə 2,2 faiz, o cümlədən idxal 5,6 faiz, ixrac 0,3 faiz azalıb. Bu dövr ərzində ölkədən 1 milyard 781,1 milyon dollar dəyərində qeyri neft-qaz məhsulları ixrac edilib ki, bu da 2018-ci ilin eyni dövrünə nisbətən faktiki qiymətlərlə 16,3 faiz, real ifadədə isə 10,3 faiz çoxdur.

Dövlət Gömrük Komitəsinin məlumatlarına əsasən, ixracın 29,6 faizini İtaliyaya, 13,9 faizini Türkiyəyə, 6,6 faizini İsrailə, 5,2 faizini Hindistana, 5,1 faizini Almaniyaya, 4,1 faizini Çinə, 3,8 faizini İspaniyaya, 3,6 faizini Rusiyaya, 3,1 faizini Çexiyaya, hər biri 2,9 faiz olmaqla Fransa və Gürcüstana, 2,6 faizini Birləşmiş Krallığa, 2 faizini Xorvatiyaya, 1,9 faizini Portuqaliyaya, 1,8 faizini Ukraynaya, 10,9 faizini isə digər ölkələrə göndərilmiş məhsulların dəyəri təşkil edib.

Qeyri neft-qaz məhsulları üzrə ixracın dəyərində Rusiyaya (34,9 faiz), Türkiyəyə (20,4 faiz), İsveçrəyə (9,2 faiz), Gürcüstana (8,5 faiz), Ukraynaya (2,6 faiz), İtaliyaya (2,2 faiz), Çinə (2 faiz), Yunanıstana (1,9 faiz), İrana (1,3 faiz), Niderlanda (1,3 faiz), Qazaxıstana (1,3 faiz) göndərilmiş malların payı üstünlük təşkil edib.

Ölkəyə idxal olunmuş məhsulların ümumi dəyərinin 16,7 faizi Rusiya, 12 faizi Türkiyə, 9,8 faizi İsveçrə, 9,6 faizi Çin, 5,8 faizi ABŞ, 5,1 faizi Almaniya, 3,5 faizi Ukrayna, 3,4 faizi İran, 3,2 faizi Kanada, 2,7 faizi İtaliya, 2,4 faizi Avstraliya, 1,8 faizi Fransa, 1,7 faizi Birləşmiş Krallıq, hər biri 1,6 faiz olmaqla Qazaxıstan və Yaponiya, 19,1 faizi isə digər ölkələr ilə aparılmış idxal əməliyyatlarının payına düşüb.

* * *

## Keçən il Azərbaycandan 3124 çeşiddə məhsul göndərilib

Ötən il Azərbaycandan 3124 çeşiddə məhsul ixrac olunub.

AZƏRTAC xəbər verir ki, bu barədə Dövlət Gömrük Komitəsi məlumat yayıb.

Qeyd edək ki, 2019-cu ildə Azərbaycanda ixrac əməliyyatlarının dəyəri 19 milyard 635,5 milyon ABŞ dolları olub.

* * *

## İxrac və idxal edilən məhsulların həcmi açıqlanıb

Keçən ilin 11 ayında idxal və ixrac edilən məhsulların həcmi açıqlanıb.

Dövlət Statistika Komitəsindən AZƏRTAC-a bildirilib ki, 2019-cu ilin yanvar-noyabr aylarında 2018-ci ilin eyni dövrü ilə müqayisədə mühüm məhsul növlərindən təzə meyvə ixracı 9,9 faiz, şəkər 49,4 faiz, tütün 1,6 dəfə, meyvə və tərəvəz şirələri 31,1 faiz, çay 6,5 faiz, meyvə və tərəvəz konservləri 5 faiz, marqarin, qida üçün yararlı digər qarışıqlar 26,9 faiz, pambıq lifi 1,6 dəfə, emal olunmamış alüminium 31,5 faiz, polietilen 10,9 faiz, pambıq ipliyi 34,8 faiz, bentonit gili 16 faiz artıb. Hesabat dövründə təzə tərəvəz ixracı isə 7 faiz, kartof 7,2 faiz, bitki yağları 23,3 faiz, təbii üzüm şərabları və üzüm suslosu 20,4 faiz, qara metallardan yarımfabrikatlar 29,4 faiz, qara metallardan borular 81,9 faiz azalıb.

On bir ayda buğda idxalı 49,9 faiz, xam şəkər və şəkər 46,2 faiz, təzə meyvə 1,1 faiz, bitki yağları 14,5 faiz, kərə yağı, digər süd yağları və pastaları 16,7 faiz, çay 7,5 faiz, kartof 31,2 faiz, quş əti və onun əlavə məhsulları 7,8 faiz, mal əti 6,5 faiz, təzə tərəvəz 25,7 faiz, minik avtomobilləri 1,8 dəfə, polad prokatı 26,8 faiz, mineral gübrələr 20,2 faiz, hesablama maşınları, blok və qurğuları 43,3 faiz, rezin şinlər 15,9 faiz, avtobuslar 2,1 dəfə, mebellər 4,5 faiz, yük avtomobilləri 1,7 dəfə, polietilen 19,2 faiz, məişət kondisionerləri 54 faiz, paltaryuyan maşınlar 7,2 faiz, qara metallardan künclüklər 11,5 faiz artıb. Siqaret idxalı isə 57,6 faiz, qara metallardan borular 13,3 faiz, qara metallardan çubuqlar 18 faiz, sement və sement klinkerləri 16,4 faiz, məişət soyuducuları 12,9 faiz geriləyib.

# Şahmat üzrə xatirə turniri

Qəbələ Rayon Gənclər və İdman İdarəsi rayon uşaq-gənclər idman-şahmat məktəbi ilə birlikdə yeniyetmələr arasında 20 Yanvar faciəsinin otuzuncu ildönümünə həsr edilmiş şahmat üzrə xatirə turniri keçirmişdir.



Turnir iştirakçıları açılış mərasimində şəhidlərin xatirəsini bir dəqiqəlik sükutla yad etmişlər.

Tədbirdə rayon gənclər və idman idarəsinin rəisi Fəxri Soltanov və uşaq-gənclər idman-şahmat məktəbinin direktoru Ədalət Əliyev çıxış edərək 20 Yanvar faciəsinin Azərbaycanın müstəqilliyi yolunda xalqımıza qarşı törədilmiş ən qanlı cinayət olduğunu bildirmişlər. Qeyd olunmuşdur ki, əliyalın Azərbaycan oğulları və qızları sovet qoşunlarına qarşı igidliklə mübarizə aparmış, imperiya qarşısında əyilməmiş, xalqımızın qəhrəmanlıq tarixinə şərəfli səhifələr yazmışlar.

Daha sonra turnirin keçirilməsində məqsədin yarış iştirakçılarının idman ustalıqlarının artırılması və rayonun yığma komandasının tərkibinin müəyyən edilməsi olduğu bildirilmişdir.



Turnirdə rayonun ümumtəhsil məktəblərinin 60-dək şagirdi 8-10-12-14 və 16 yaş qruplarında dairəvi sistem üzrə gərgin oyun nümayiş etdirmişdir.

Hər yaş qrupunda I, II və III yerləri tutan qaliblərə rayon gənclər və idman idarəsinin diplomları təqdim edilmişdir.

**Müşfiq ABBASOV,**
**rayon gənclər və idman idarəsinin rəis müavini.**
**Səhrab Umuyev (foto).**

# Vergi Məcəlləsinə edilən dəyişikliklərin məqsədləri üzrə izah materialı

**(Əvvəli ötən nömrəmizdə).**

Bu məqsədlə Vergi Məcəlləsinin 58.8-ci maddəsi yeni redaksiyada verilmiş və bu maddənin tələblərinin istehsal fəaliyyəti ilə məşğul olan vergi ödəyiciləri tərəfindən istehsal edilən hazır məhsullara münasibətdə tətbiqi istisna edilmişdir. İstehsal fəaliyyəti ilə məşğul olan şəxslər tərəfindən istehsal olunaraq satılmış məhsulların istehsalına sərf olunan xammal və materialların bu maddə ilə müəyyən olunmuş qaydada sənədləşdirilməməsinə görə vergi ödəyicilərinə Vergi Məcəlləsinin 58.8.3-cü maddəsi ilə müəyyən olunan maliyyə sanksiyası tətbiq ediləcəkdir.

Eyni zamanda komissiyaya, emala və saxlamaya (məsuliyyətli mühafizəyə) götürülmüş malların müvafiq qaydada sənədləşdirilməməsinə görə Vergi Məcəlləsinin 58.8.2-ci maddəsi ilə müəyyən olunmuş maliyyə sanksiyası tətbiq ediləcəkdir.

ü Bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslər tərəfindən yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsi ilə bağlı vergiyə cəlb edilən gəlirlərin müəyyən edilməsi mexanizminin aydınlaşdırılması və vergi nəzarətinin təkmilləşdirilməsi.

1 yanvar 2020-ci il tarixdən tikinti-quraşdırma işlərinə başlanılmış binalar üzrə bina tikintisi fəaliyyəti üzrə sadələşdirilmiş vergitutuma metodu ləğv edilir və bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslər vahid vergi rejimində - ƏDV və mənfəət (gəlir) vergisi metodu ilə fəaliyyət göstərəcəklər. ƏDV və mənfəət vergisi metodunda fəaliyyət göstərən bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslər binanın təqdim edilən hissələrinə görə əldə olunan gəlirdən ƏDV və mənfəət vergisi ödəyəcəklər.

Qanunvericiliyə görə bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslər tərəfindən yaşayış və qeyri-yaşayış sahələrinin notarial qaydada təsdiq edilməklə, habelə notarial qaydada təsdiq edilmədən bağlanmış müqavilələr üzrə, həmçinin mənzil-tikinti kooperativi üzvlərinin ümumi yığıncağının qərarı ilə özgəninkiləşdirilməsi yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsi hesab edilir. Eyni zamanda bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslər tərəfindən yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsi ilə bağlı gəlir və bu gəlirdən çıxılan xərclər vergi ili ərzində yerinə yetirilmiş işlər (mərhələlər) üzrə təqdim edilən yaşayış və qeyri-yaşayış sahələrinin ƏDV-siz məbləğləri ilə həmin sahələrin tikintisi ilə bağlı çəkilən məsrəflər, o cümlədən torpaq sahələrinin alınması ilə bağlı çəkilən məsrəflər əsasında müəyyən ediləcəkdir.

Əlavə olaraq qeyd edək ki, tikilən binalardan dövlətə yaşayış və qeyri-yaşayış sahələri ayrıldıqda, dövlətə ayrılan yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsi üzrə dövriyyəyə vergiyə cəlb olunan gəlir hesab edilməyəcək və dövlətə ayrılan yaşayış və qeyri-yaşayış sahələrinə çəkilmiş məsrəflər gəlirdən çıxılan xərclərə aid ediləcəkdir.

Eyni zamanda tikilən binanın yaşayış və qeyri-yaşayış sahələrinin dövlətə ayrılan hissəsinin təqdim edilməsi üzrə dövriyyələr ƏDV-dən azad edilir.

Bununla da bina tikintisi sahəsində fəaliyyət göstərən vergi ödəyiciləri tərəfindən uçotun şəffaf şəkildə aparılması və hər bir vergi ödəyicisi tərəfindən vergi öhdəliyinin ədalətli müəyyənləşdirilməsi hədəflənmişdir.

# İcbari tibbi sığorta sağlamlığın keşiyindədir

**(Əvvəli 3-cü səhifədə).**

bölməsinə gətirilir. Eyni zamanda xəstə başqa nəqliyyatla birbaşa həmin bölməyə müraciət edir və xəstəyə yardım göstərilərək yaxşılaşma ilə evə buraxılır və ya stasionara yerləşdirilir.

Tibbi müşahidə və müalicə tələb olunmayan hallarda xəstəliklərin və sağlamlıqla bağlı problemlərin aradan qaldırılması üçün ixtisaslı həkim tərəfindən göstərilən tibbi yardım növü ixtisaslaşmış ambulator xidmətdir. Bu xidməti RMX-da poliklinika aparır, müraciət zamanı ASM-nın göndərişi olmalıdı, əks halda vətəndaş azadolma məbləğinə görə ödəniş edir.

Stasionar tibbi xidmət terapevtik və cərrahi növlərdən ibarət olmaqla, xəstəliklərin və sağlamlıqla bağlı problemlərin aradan qaldırılması üçün tibb müəssəsində tibbi müşahidə və müalicə tələb olunan hallarda ixtisaslı həkim tərəfindən göstərilən tibbi yardımdır. Bu halda xəstələr ambulator poliklinika və təcili təxirəsalınmaz tibbi yardım bölməsindən göndərilir. Stasionarın iş rejiminə riayət olunması xüsusilə vacibdir, yatan xəstələrin xəstə yaxınları ilə görüşü iş günlərində 17[00]-dan 20[00]-dək, istirahət və bayram günlərində 11[00]-dan 14[00]-dəkdir. Bu rejimə riayət edilməsi məcburidir, əks halda xəstəxananın daxili rejimi pozulur .

Xidmətlər zərfinin baza hissəsinə daxil olan ilkin səhiyyə xidməti və təcili təxirəsalınmaz tibbi yardım xərcləri dövlət tərəfindən qarşılanır. İxtisaslaşdırılmış tibbi xidmət və stasionar tibbi xidmət xidmətlər zərfinin əlavəsinə uyğun olaraq ödənişlidir. Bu hamilə qadınlara və uşaqlara şamil edilmir. Xidmətlər zərfinin əlavə hissəsinə münasibətdə aşağıda qeyd olunan vətəndaşlar kateqoriyalara bölünür və onlar sığortalanan olmaqla ödənişdən azaddır.

- seçkili ödənişli vəzifədə işləyənlər;
- neft-qaz sahəsində fəaliyyət göstərən əmək müqaviləsi ilə işləyənlər;
- 18 yaşa qədər respublika vətəndaşları;
- peşə təhsili, orta ixtisas təhsili və ya ali təhsil müəssələrində əyani təhsil alan 23 yaşadək respublika vətəndaşları;
- əmək pensiyası alan şəxslər;
- sosial müavinət almaq hüququna malik olan əmək qabiliyyəti olmayan şəxslər;
- ünvanlı dövlət sosial yardım alan ailənin üzvləri;
- qeydiyyatdan keçmiş hamilə qadınlar, habelə doğuşdan sonra 42 gün müddətində zahı qadınlar;
- qismən ödənişli sosial məzuniyyətdə olan qadınlar;
- sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər;
- mülkü-hüquqi xarakterli müqavilələr əsasında işləri yerinə yetirən şəxslər.

İcbari tibbi sığortanın tədbiqi əhaliyə tibbi xidmətlər əlçatanlığına təminat verməklə maddi imkanı olmayanların belə tam yararlanmasına xidmət edir. Odur ki, hər bir vətəndaşın məsuliyyətlə sağlamlığının qayğısına qalması vacibdir.

**Cavanşir MƏLİKOV,**
**RMX PHŞ-in direktor müavini.**